# KƏLBƏCƏRDƏ HƏYAT QAYNAYIR...

**Müstəqilliyimizin möhkəmlənməmiş, dövlətçiliyin zəif vaxtında amansız, qəddar və işğalçı düşmən, şovinist havadarlarının köməyi ilə Oğuz yurdunun mərd oğulları ilə tanınan Kəlbəcəri işğal etdi. Kəlbəcərin, eləcə də hər bir rayonun işğalını böyük facię adlandıran ölkə Prezidenti cənab**



**İlham Əliyev qeyd etmişdir ki, 1992-ci ilin may ayında Şuşa və Laçın rayonlarının işğalından sonra Kəlbəcərin də işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı. Kəlbəcər 1993-cü ilin aprelin 2-də işğal edilmişdi və ermənilər üçün bu bölgəmizin işğalı xüsusi əhəmiyyət daşıyırdı. Çünki Kəlbəcər həm təbii sərvətlərinə, həm ərazisinin böyüklüyünə, həm tarixi-mədəni irsinə, həm də keçmiş Dağlıq Qarabağa gedən strateji yolların üzərində yerləşdiyinə görə xüsusilə əhəmiyyətli idi. Kəlbəcərin işğalı nəticəsində on minlərlə soydaşımız məcburi köçkünə çevrilmiş, evləri dağıdılmış və talan olunmuşdur.**

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq, Azərbaycan işğalçını BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin tələblərini güc yolu ilə yerinə yetirməyə məcbur etdi. Azərbaycan döyüş meydanında parlaq Qələbə qazanaraq siyasi meydanda da öz sözünü dedi və istədiyinə nail oldu. Haqq-ədalət qələbə çaldı. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları birgə Bəyanatla 30 ilə yaxın davam edən münaqişəyə son qoyuldu, düşmən kapitulyasiyaya məcbur edildi. Bəyanata uyğun olaraq Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan Azərbaycana qaytarıldı. Belə ki, noyabrın 25-də Kəlbəcər rayonu işğaldan azad olundu və Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi hərbi əməliyyat keçirilmədən işğaldan azad edildi. Beləliklə, 27 illik işğaldan sonra Kəlbəcər azadlığına, öz sahiblərinə qovuşdu... Prezident İlham Əliyev Azərbaycan xalqına sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbə sevinci, yüksək fəxarət duyğuları, hədsiz fərəh, qürur, iftixar hissləri yaşatdı... Bu tarixi Qələbə ilə Qalib Sərkərdə, Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyev çox sevdiyi xalqı üçün həlli mümkünsüz görünəni reallaşdırdı. Məhz onun sağlam və uzaqgörən siyasəti nəticəsində ilk dəfə idi ki, xalqımız tarixdə son iki əsrlik dövr ərzində qalibiyyəti yaşadı, dövlətçiliyini qorudu və öz suverenliyini tam bərpa etdi. Dövlət başçısı ideal liderlik nümunəsi göstərərək, öz xalqı və dövləti naminə əzmli və qətiyyətli olmağın, nə olur-olsun öz haqlı və prinsipial mövqeyindən, ali məqsədlərindən əsla geri dönməməyin düsturunu yaratdı.







Prezidentin vurğuladığı kimi, "Zəfər adı xalqımıza çox yaraşır... Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır". 2020-ci ilin noyabrında təhlükəsiz şəkildə və öz seçimi ilə ərazini tərk edən erməni əhalisindən fərqli olaraq, 1993-cü ildə rayonun azərbaycanlı əhalisi oradan zorakılıqla qovulub, dağ yolları ilə, ayaqyalın, piyada şəkildə erməni təcavüzkarlarından qaçıb zorla xilas olublar. Bəli, Azərbaycan xalqı ermənilərdən fərqli olaraq qurub-yaratmağı sevir. Bu sevgilə Vətən məhəbbəti, qurub-yaratmaq əzmi də qayıdıb Kəlbəcərə. Ölkə başçısının rəhbərliyi ilə işğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, Kəlbəcər rayonunda da böyük quruculuq aparılır. Ölkə Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün tapşırıqlarına uyğun olaraq, Kəlbəcər rayonuna yeni avtomobil yolunun çəkilməsi əsas məsələlərdən biri olmuşdur. Ölkəmizdə insan amilinə verilən dəyərin göstəricisidir ki, öncə ata-baba yurdundan məcburi şəkildə çıxarılmış və 30 il ərzində köçkün həyatı yaşayan soydaşlarımızın torpağı azad edildi, sonra isə o torpaqlara gedən yollar abadlaşdırılmağa başlandı. Göygölün Toğanalı kəndindən Murovdağ silsiləsini keçməklə Kəlbəcər-İstisu istiqamətində yeni avtomobil yolunun tikintisi sürətlə aparılır. Xatırladaq ki, Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun uzunluğu 81 kilometr təşkil edir. Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi layihəsi çərçivəsində Murovdağ tunelindən əlavə, daha üç tunelin inşası nəzərdə tutulmuşdur. Uzunluğu 542, eni 12 metr olan birinci və uzunluğu 607 metr olan ikinci tuneldə tikinti işləri aparılır. Tikintisi 2025-ci llədək yekunlaşdırılması nəzərdə tutulan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Buna görə də yol rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər şəhərinə və məşhur "İstisu" ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək. Daşı daş üstündə qalmayan torpaqlarımızın abadlaşdırılması üçün elektrik enerjisi ən vacib şərtlərdən biridir. Odur ki, Zəfərdən dərhal sonra Qarabağın işıqlandırılması işlərinə başlanıldı. İşğaldan azad edilən ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları tikilib istifadəyə verilib. İndiyədək bu stansiyalarda 30 milyon kilovat/saat elektrik enerjisi istehsal olunub. Yeni tikilmiş 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası (KSES) ölkə Prezidentinin xeyir-duası ilə istifadəyə verildi. Lev çayı üzərində inşa olunan stansiya işğaldan azad edildikdən sonra Kəlbəcərdə tikilərək istismara verilən ilk enerji istehsalı obyektidir. "Yaşıl enerji zonası" konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Kəlbəcər-1" KSES-də maşın zalı tikilib, yeni aqreqat, generator, idarəetmə panelləri və transformatorlar quraşdırılıb. Burada 110/6 kilovoltluq yarımstansiya da inşa edilib. "Kəlbəcər-1" KSES Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyanın işinə Kəlbəcərdən olduğu kimi, Bakıdakı Baş İdarəetmə Mərkəzindən də nəzarət və onu idarə etmək əlçatan olub. Məsafədən idarə edilən KSES-lər demək olar işçi heyət olmadan işlədilir. Stansiyaların idarəetmə sistemi tam avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılıb ki, bu da istehsal olunan elektrik enerjisinin maya dəyərinin daha da aşağı düşməsinə gətirib çıxarır. Erməni vandalları tərəfindən enerji sistemi tamamilə dağıdılan Kəlbəcər rayonuna Daşkəsəndən 70 kilometr məsafədə 110 kV-luq yüksəkgərginlikli ikidövrəli elektrikötürmə xətti çəkilib.

Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3400 metr yüksəklikdə quraşdırılıb. Artıq Kəlbəcər ona bəxş olunan nurun ilk zərrəciklərinə qərq olub... Kəlbəcərdə "İstisu" mineral su zavodunun və "İstisu" sanatoriyasının inşası hər bir azərbaycanlıda nikbinlik hissləri yaşadır. Kəlbəcər-Laçın avtomobil yolunun açılması ilə dilbər guşələrin dağlıq relyefi, füsunkar təbiət mənzərələri, keyfiyyətli su ehtiyatları və tarixi abidələri buranın gələcəkdə turizm məkanı kimi şöhrət tapacağına zəmin yaradacaqdır. Ölkə Prezidenti cənab İlham Əliyevin xeyir-duası ilə təməli qoyulmuş "İstisu" mineral su zavodunda həm şüşə, həm də plastik butulka istehsalı xətləri qurulub. Müəssisədə gündə 327 min, ildə isə 95 milyon butulka mineral su istehsal olunacaq. Ümumiyyətlə, statistikaya görə, Azərbaycanda mineral suların ümumi ehtiyatının 33 faizi Kəlbəcər və Laçın rayonlarında yerləşir. Bu rayonlarda suların gündəlik istismar ehtiyatı 7393 kubmetr təşkil edir ki, bunun da 42 faizi Laçının, 58 faizi isə Kəlbəcərin payına düşür. Kəlbəcərin infrastrukturu, elektrik, su təchizatı, evlərin tikilməsi sürətlə aparılır və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev bu barədə deyib: "Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə həyat qayıdacaqdır".






**Kəlbəcər sakini Valeh İsmayılov** bütün hadisələrin gözünün qarşısında baş verdiyini bildirir:

- Kəlbəcərin uzunmüddətli işğalı bizi həsrətdə qoymuşdu. Beynəlxalq Təşkilatların köməyi görsənmirdi. Şükürlər olsun ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin səyi, qətiyyəti, rəhbərliyi və Şanlı Ordumuzun qəhrəmanlığı, peşəkarlığı sayəsində misli görünməyən Qələbə qazanıldı. Bəli, 30 illik həsrət bitdi... Bütün dünyaya güclü, iradəli, vətənpərvər xalq olduğumuzu bir daha sübut etdik. Bütün dünyaya haqq yolunda olduğumuz bəyan olundu. Ölkə Prezidentinin dərin siyasəti, müdrikliyi və qətiyyəti sayəsində Kəlbəcər bir güllə belə atılmadan geri qaytarıldı.

**Kəlbəcər sakini Əlövsəd Məmmədov** deyir:

- Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən, düşünülmüş siyasəti və sərkərdəliyi, yenilməz ordumuzun gücü, qüdrəti sayəsində dilbər guşəmiz, Kəlbəcər erməni vandallarının işğalından azad olundu, ərazi bütövlüyümüz təmin edildi. Dövlət başçısı bizə həyat və hədsiz sevinc bəxş etdi... Biz kəlbəcərlilərin hisslərini sözlə ifadə etmək mümkün deyil. Artıq biz ən xoşbəxt və qürurlu günlərimizi yaşayırıq. Üçrəngli şanlı bayrağımız ərazilərimizdə dalğalanır. Vətən üçün göz qırpmadan özünü ölümün cənginə atan qəhrəman şəhidlərimizin qisası alındı, onların ruhu şad oldu. Doğma yurdumuzu bizə qaytardığına görə Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevə daimi, əbədi minnətdarıq. Aparılan sürətli, geniş bərpa və yenidənqurma bizi çox sevindirir. Qədirbilən kəlbəcərlilər xalqının sevimlisi ölkə başçısı cənab İlham Əliyevə minnətdardırlar.

Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı Qələbə nəticəsində işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərə də həyat yenidən qayıdır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**